# SƏMAVİ HƏDİYYƏLƏR

1-ci kitab



بسم الله الرحمن الرحيم

Bismillahir Rəhmanir Rəhim

# Səmavi hədiyyələr

## Birinci kitab

مَنْ عَمِلَ صَالِحًا مِنْ ذَكَرٍ أَوْ أُنْثَىٰ وَهُوَ مُؤْمِنٌ
فَلَنُحْيِيَنَّهُ حَيَاةً طَيِّبَةً وَلَنَجْزِيَنَّهُمْ أَجْرَهُمْ بِأَحْسَنِ مَا كَانُوا يَعْمَلُونَ

**"Mömin olub yaxşı işlər görən (Allaha itaət edən) kişi və qadına (dünyada və axirətdə) xoş həyat nəsib edəcək və etdikləri ən yaxşı əməllərə görə mükafatlarını verəcəyik".**

**(Qurani-Kərim, Nəhl surəsi, 97-ci ayə)**

Uca Yaradanımız tərəfindən həzrət Muhəmməd Peyğəmbərə (s) göndərilmiş İslam dini özündə etiqadlar, əxlaq, şəriət hökmləri və qayda-qanunları ehtiva edir. İnsan gözəl həyat yaşayıb Allaha yaxınlaşmaq üçün məhz bunlara ehtiyac duyur. İslam təlimlərinin əsas mənbəyi Quran, həzrət Peyğəmbərin (s) və onun həqiqi davamçıları sayılan məsum İmamların (ə) sünnəsi və sağlam ağıla əsaslanır. Bunu nəzərə alaraq, İslam maarifini öyrənmək hər bir müsəlman üçün zəruridir.

Əlinizdə olan bu kitabın hazırlanmasında başlıca məqsəd yeniyetmələrin müqəddəs İslam təlimləri əsasında ağıl, iman, elm, əməl və əxlaq baxımından düzgün şəkildə yetişdirilməsidir. Belə ki, bunun sayəsində onlar öz mövqelərini həm özlərinə, həm Allaha, həm bəndələrə, həm də yaradılışa qarşı düzgün şəkildə anlayıb cəmiyyətdə fərdi, o cümlədən ictimai mövqe nümayiş etdirməyi bacarsınlar.

Uca Allahdan dini vəzifələrin yerinə yetirilməsində hamıya uğurlar arzu edirəm.

**Professor Ərafi**

**Bismillahir Rəhmanir Rəhim**

**Bağışlayan və mehriban Allahın adı ilə. O, insana Quranı öyrətdi. Həqiqət axtarmaq nemətini və Özünü tanımaq nemətini bəxş etdi.**

Rəbbimiz bizə İslam təlim-tərbiyəsi sahəsində uşaqlara, yeniyetmələrə və xidmət etmək şərəfini nəsib etdi.

MSEN (MUSLİM SCHOOLS EDUCATİON NETWORK) böyük alimlərin rəhbərliyi altında insanlara dini-əxlaqi dəyərləri təqdim edən bir qurumdur. Qurumun əsas fəaliyyəti gələcəyin qurucuları olan bu günkü nəslin əxlaqi və mənəvi baxımından yetişdirilməsində müəllim, valideyn və şagirdlərlə həmkarlıq etməkdən ibarətdir. Aşağıda bir sıra məqsədlərimizi təqdim edirik:

* İslam təlim-tərbiyəsinin tədrisi üçün aydın və gözəl bir hədəf bəyan etmək;

* Mənbələr, ixtisaslar və təcrübələrin mübadiləsi üçün geniş bir ədəbiyyat təqdim etmək;

* Əxlaqi və mənəvi bir dəyişikliyin formalaşmasında əhatəli bir ortamın yüksəldilməsi;

* İslam təlim-tərbiyəsinin kursu, məzmunu, metodları və dəyərləndirilməsi üçün çalışmaq.

Bu qurumun əsas məqsədi mənəvi dəyərlərin öyrənilməsində yüksək dizaynla hazırlanmış kamil bir məcmuəni təqdim etməkdir. Allahın mərhəməti və yüksək səviyyəli kadrların həmkarlığı ilə bu məqsədə doğru önəmli bir addım atılmışdır.

Bu qəbildən olan kitablar əsasən mötəbər İslami mənbələrə əsaslanmaqla yanaşı maraqlı və cəlbedici metodlardan istifadə edərək etiqad prinsipləri, əxlaq və dini hökmləri ehtiva edir. Bu məcmuə əsasən İslamın əsas meyarlarına – ağıl, mənəviyyat, mötədillik və sülhə əsaslanaraq tərtib edilmişdir.

Yeri gəlmişkən, bu böyük işdə bizimlə əməkdaşlıq etmiş bütün həmkarlara, xüsusilə də professor Ərafi, doktor Məhəmməd Məhəmmədian, doktor İbrahimi və cənab Fəyyaziyə təşəkkür etməyi özümüzə borc bilirik.

Habelə MSEN-dəki həmkarlarımızın akademik dəstəyinə, xüsusilə doktor Əzhər Həsənrza, Bilal Rizəvi, Nəzirə Musa, Səfinə Səadət, Nazənin Davdani, Şahin Heydər, Sima Cəmaləddin, Laden Razeqi və Şəhrbanu Cəfəriyə bu məcmuənin öz məqsədinə çatmasında misilsiz zəhmətlərinə görə təşəkkür edirik.

**İsa Cahangir**

**MSEN**

***Ad, soyad*** ........................................................

***Sinif:*** .................. ***Məktəb:*** ..................

***Müəllim:*** ......................

***Ünvan:*** ...............................................................................



# Mündəricat

## Ön söz


Birinci dərs: Allahın adı ilə, Bismillah..............................10
Tövhid (İxlas) surəsi..................................14
İkinci dərs: Allahın nemətləri.......................................18
Kövsər surəsi..........................................20
Çörək necə əmələ gəlir?..............................23
Üçüncü dərs: Bizim evimiz..............................................26
Əsr surəsi................................................28
Babanın hədiyyəsi.....................................32
Dördüncü dərs: Quran oxuyaq..........................................34
Nas surəsi...............................................38
Ən mehriban müəllim................................40
Dəyərli hədiyyə.........................................43
Təkrar 1 ..............................................................44
Beşinci dərs: Müsəlman uşaq........................................46
Həmd (Fatihə) surəsi................................50
Altıncı dərs: Bizim məktəb...........................................56
Fələq surəsi............................................58
Quran dərsi.............................................62
Yeddinci dərs: Allahın peyğəmbərləri................................66
Nəsr surəsi..............................................68
Musa peyğəmbərin (ə) uşaqlığı..................70
Təkrar 2 ............................................................. 75
Sonuncu dərs: Yay tətilində də Quran oxuyaq...................77






## Müəllimlərin nəzərinə!

**Həzrət Muhəmməd Peyğəmbər (s) buyurmuşdur:**

"Sizin ən yaxşınız Quran öyrənib başqalarına da öyrədəninizdir."

(Əl-Məhəccətul-beyza, c. 2, səh. 21)

### Hörmətli müəllim!

Sizi salamlayıb görəcəyiniz bu nəcib işdə uğurlar arzu edirik! İşinizin daha səmərəli olacağı məqsədilə bir neçə mühüm məqamı diqqətinizə çatdırmaq istəyirik. İndi deyəcəklərimizin "Müəllim kitabı"nda daha təfsilatlı şəkildə qeyd olunmasına baxmayaraq, burada da qısaca olaraq toxunmağı məqsədəuyğun hesab edirik.

Hər bir işi gördükdən sonra Allaha təvəkkül edib Onun mərhəmətinə ümid bəsləyin! Unutmayın ki, Allah yolunda bir iş görən insanı Yaradan Özü dəstəkləyib ona yardımçı olar:

"Bizim uğrumuzda çalışanları öz yollarımıza qovuşduracağıq. Şübhəsiz ki, Allah yaxşı əməllər edənlərlədir!"

(Ənkəbut surəsi, 69-cu ayə)

Hər hansı bir işdə uğrun qazanılması düzgün proqrama ehtiyac duyur. Bu kitabın tədrisi ilə bağlı ən önəmli məsələləri aşağıda diqqətinizə çatdırırıq. Deyilənlərə riayət ediləcəyi təqdirdə işinizdə uğur qazanacağınıza qətiyyən şübhəniz olmasın.

### Duyğulara önəm verməyin əhəmiyyəti

Tədris metodu barədə qısa açıqlama verməzdən əvvəl bir məsələni qeyd etmək lazımdır ki, uşaq və yeniyetmələrin psixoloji xüsusiyyətlərini nəzərə alaraq Quran təliminin ilkin mərhələsində uşaqların duyğuları onların bilik və bacarığından daha böyük təsirə malik olur. Quran təlimi zamanı elə gözəl, cəlbedici və maraqlı atmosfer yaradılmalıdır ki, şagirdlər Quran dərsinin başlamasını böyük səbirsizliklə gözləsinlər. Belə bir mühitin formalaşdırılması üçün hörmətli müəllim öz bilik və təcrübəsindən istifadə etməklə yanaşı aşağıdakı məsələləri də mütləq diqqət mərkəzində saxlamalıdır:

1) Dərs materialları həddən artıq sadə formada təqdim edilməlidir.
2) Dini və qeyri-dini həvəsləndirici vasitələrdən istifadə edilməlidir.
3) Şagirdlərə qarşı qətiyyən sərt rəftar edilməməli, onların fərdi potensialları nəzərə alınmalıdır.
4) Tədris prosesini hekayə, əhvalat, qrup halında yarışlar təşkil etmək və şagirdlərin dərs prosesinə fəal qoşulmasını təmin etmək kimi müxtəlif vasitələrlə daha da maraqlı etmək lazımdır.

## Dərsə başlamazdan qabaq görüləsi işlər

1) Tədris bələdçisini ("Müəllim kitabı"nı) mütəmadi şəkildə oxuyun və keçəcəyiniz dərsi şagird kitabında gözdən keçirin.
2) Hər dərsin əsas məqsədini qabaqcadan təxmin edib müəyyənləşdirin.
3) Dərs üçün lazım olan müxtəlif əyani vəsaitləri hazırlayıb dərs başlamazdan qabaq əlverişli yerdən asın.
4) Dərsə başlamazdan qabaq maqnitofon və ya kompüter hazırlayıb onun işlək vəziyyətdə olmasından əmin olun.
5) Dərsə başlamazdan qabaq keçirilməsi nəzərdə tutulan surələrin audiosəsləndirməsini təmin edən vasitələri hazır vəziyyətdə saxlayın. Nəzərdə tutduğunuz surənin yerini müəyyənləşdirin.

## Qurandakı söz və ifadələrin üzdən oxunması:

Quranın üzdən oxunması tədrisin ilk həftəsindən başlayır. Müxtəlif lövhə və tabloların köməyi ilə Quranın söz və ifadələrinin üzdən oxunuşu aşağıdakı şəkildə öyrədilməlidir:

a) Tablonu yazı lövhəsinin üzərindən asdıqdan sonra hərəkə və hərfləri aşağıda deyiləcək formada göstərin ki, şagirdlər onu birlikdə oxuya bilsinlər.

b) Sinfin şəraitindən və şagirdlərin bacarıq səviyyəsindən asılı olaraq şagirdlərdən müəllimin işarəsi ilə sözləri düzgün şəkildə hecalara bölüb oxumalarını istəyin. Sonra isə bir neçə şagirdin hər birinə tablodakı sözlərin bir hissəsini oxutdurun.

c) Dərsin bitməsinə qalan vaxtı nəzərə alaraq, şagirdlərin hər birinə bir və ya bir neçə sözü kitabdan uca səslə oxutdurun, digər şagirdlər isə oxunan sözü kitablarından izləsinlər.

***

**Bir neçə qeyd:**

Üzdən oxuma zamanı aşağıdakılara diqqət yetirilməlidir:

1. Hörmətli müəllim! Sözləri özünüz oxumayın. Sadəcə söz və ya ifadələri yuxarıda deyilmiş formada oxumaq üçün şagirdlərə kömək edin.

2. Tablodan istifadə etmək və sözlərin hecalarına düzgün şəkildə işarə etməklə şagirdlərin söz və ya ifadələri həm tək-tək, həm də kollektiv şəkildə oxuması üzdən oxumaqda olduqca böyük önəm kəsb edir. Bu məqama diqqət yetirməmək və yaxud ona səhlənkar yanaşmaq üzdən oxumağın gücləndirilməsinə ciddi zərbə vura bilər.

3. Sözləri üzdən oxumağın ən gözəl yolu odur ki, şagird sözün hər bir hecasını uca səslə oxusun. Yəni, lazım deyil ki, şagird əvvəlcə sözün hecalarını beynində hissə-hissə oxuyub ondan sonra sözü birdəfəyə (hecalara bölmədən) uca səslə birdən oxusun. Şagirdlərə kömək edin ki, heç nədən çəkinmədən sözün hecalarını hissə-hissə ucadan oxusunlar. Söz və ifadələri oxumaq sürəti şagirdlərin bilik səviyyəsindən və təkrardan asılı olaraq tədricən artacaq.

4. Üzdən oxuya bilmək bacarığını mənimsəmək üçün şagirdlərin müəyyən zamana ehtiyacı vardır. Şagirdlərin fərdi qavrama bacarığını nəzərə alaraq onlar üçün kifayət qədər fürsət verin. Onların hamısının eyni səviyyədə oxuya biləcəyini qətiyyən gözləməyin.

5. Şagirdlərin tabloda verilmiş söz və ya ifadələrin hamısını bir dərs ərzində oxuya bilməsi şərt deyil. Tablonun hər hissəsində verilmiş sözləri bir dərsdə oxuyub təkrarlamaqla da kifayətlənmək olar. Bu, şagirdlərin həvəsindən asılı olaraq fərqlənə bilər. Növbəti dərslərdə onların marağını daha da artıra bilərsiniz.

6. Şagirdləri həvəsləndirin ki, hər gün Quran dərsində keçdiklərini evdə valideynləri üçün oxusunlar.

7. Novruz bayramından başlayaraq şagirdləri yay tətilində Quran ayələrini oxumağa həvəsləndirmək mümkündür. Bu, əlbəttə ki, onların Quranı oxumaq bacarığının daha da artmasına yardımçı olacaq.

**Nəzərdə tutulan məqsədlər:**

Dərs ilinin sonuna qədər hər bir şagirdin aşağıdakıları həyata keçirəcəyi gözlənilir:

1) Kitabda verilmiş Quran surələrinin kollektiv oxunuşunda iştirak etmək.
2) Kitabda verilmiş surələrdən ikisini əzbərləmək.
3) Kitabda verilmiş Quran söz və ifadələrini yavaş-yavaş, yaxud hecalayaraq oxumaq.
4) Dərs vaxtı Quran mesajlarından söhbət gedərkən yaxından iştirak etmək. Bacardıqları qədər orada deyilən fikri öz sözləri ilə çatdırmaq.

Bu bacarıqlara yiyələnən şagird ən yüksək qiymətlə qiymətləndirilməlidir. Məlum məsələdir ki, şagirdlərin çoxu bundan daha artığını bacaracaqlar.

**Tövsiyələr**

Şagirdlərdə Quran təliminə dair daha artıq maraq yaratmaq məqsədilə aşağıdakılara diqqət yetirilməlidir:

1) Quran dərsi kifayət qədər maraqlı, hər cür narahatlıqdan uzaq olmalıdır.
2) Dillə və yaxud digər yollarla həvəsləndirici vasitələrdən istifadə edilməlidir.
3) Şagirdlərin valideynlərini, xüsusilə də hörmətli anaları məktəbə dəvət edərək onlarda Quran dərsi barədə daha yaxşı və əyani şəkildə təsəvvür yaradın ki, onlar da evdə uşaqlarla məşğul olmaqla sizə kömək etmiş olsunlar.
4) Gündəlik bir saat dərsdən əlavə həftədə üç dəfə hərəsi on dəqiqə olmaqla üç tapşırıqdan istifadə edilməlidir ki, şagirdlər həftə boyu keçirilənlər materialı daha yaxşı mənimsəyə bilsinlər.

# Dərs 1

**1-ci həftə**
**1-2-ci dərs**

Hörmətli müəllim! İkinci dərsdə Quran bayramı təşkil etmək məqsədilə şagirdlərin köməyi ilə sinfi bəzəyin!

## Allahın adı ilə, Bismillah



**Salam, əziz şagirdlər!**

Quran bayramında aşağıdakılardan hansı birini etmək istərdiniz?

1. Gözəl bir şeir dmək və ya Quranın bir surəsini oxumaq.
2. Quranla əlaqədar maraqlı bir xatirə və ya əhvalat danışmaq.

Hörmətli müəllim! Yaxşı olar ki, bu bayram şagirdlərin yaddaşında daha gözəl iz buraxsın və Quran dərsinə daha gözəl şəraitdə başlayasınız deyə, valideynlərin, xüsusilə də anaların iştirakını təmin edəsiniz.



Hörmətli valideyn! Quran dərsinin başlanmasında iştirak etməklə övladınızı sevindirin.

**2-ci həftə**
**1-ci dərs**

## Quranın mesajı

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

**Bismillahir Rəhmanir Rəhim**

**Bağışlayan və mehriban Allahın adı ilə!**

(Həmd surəsi, 1-ci ayə)

Allah, tanrı : الله　　Ad : اسم

Şəkildən istifadə edərək Quranın mesajı barədə bir-birinizlə söhbət edin.










**Söhbət:** Daha hansı işləri Allahın adı ilə başlayırıq?

**Tapşırıq 1-** Keçən dərsdəki Quranın mesajını sinif yoldaşlarınız üçün danışın.

**Tapşırıq 2-** Aşağıdakı tablonu uyğun rənglə rəngləyin

**Tapşırıq 1-** Hər işin Allahın adı ilə başlamasına dair bir əhvalat danışın.

بِسۡمِ اللّٰهِ الرَّحۡمٰنِ الرَّحِيمِ

Tapşırıq 1. Keçən dərsdəki Quranın mesajını sinif yoldaşlarınız üçün danışın.

## Tablo 1

Tövhid surəsinin verildiyi tabloya baxın və audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim Allahın adı ilə!

١ ـ قُلْ هُوَ اللّٰهُ اَحَدٌ

De: "O Allah təkdir!

٢ ـ اَللّٰهُ الصَّمَدُ

O, bütün ehtiyaclıların üz tutduğu Allahdır.

٣ ـ لَمْ يَلِدْ وَ لَمْ يولَدْ

Nə doğub, nə doğulub,

٤ ـ وَ لَمْ يَكُنْ لَه كُفُوًا اَحَدٌ

Onun bənzəri də yoxdur".'

Tapşırıq 2.
Şagirdlərdən könüllü olaraq istəyən Tövhid surəsini tək oxusun.

**Hörmətli valideyn!**

Surəni oxuyarkən ayə və sözlərin ümumi görünüşünə baxmaq kifayətdir. Bu mərhələdə sözləri hecalara bölməyə ehtiyac yoxdur.

**Birlikdə oxuyaq!**

**Tapşırıq 1.** Tövhid surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

**Tapşırıq 2.** Aşağıda verilmiş gözəl şeiri müəlliminizin köməyi ilə birlikdə oxuyun və ona uyğun bir ad seçin!

Mən dəryaya üz tutdum,
Dedim: "De, Allah kimdir?"
Söylədi mənə dərya:
"Allaha bənzər kimdir?

***

Ağacın, dağın, daşın
Yaradanı bax Odur!
Görən, bilən, eşidən,
Bağışlayan məhz Odur.

***

Ata deyil heç kimə,
Ana deyil heç kimə.
Həm ata, həm ananın
Yaradanı, bil Odur!"

*Kubra Haşimi*

**Tapşırıq 3.** Şagirdlərdən könüllü olaraq istəyən Tövhid surəsini tək oxusun.

**Tapşırıq:** Tövhid surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

## Quranın mesajı

سَـلامٌ عَـلَـيْـكُـمْ

**Sizə salam olsun!**

(Rəd surəsi, 24-cü ayə)

salam : سَلام

Verilmiş şəkillərin köməyi ilə Quranın mesajı barəsində sinif yoldaşlarınızla söhbət edin.










Tapşırıq 1. Keçən dərsin Quran mesajını sinif yoldaşlarınız üçün danışın!

Tapşırıq 2. Tövhid surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

Tapşırıq 3. Dostlarınızın köməyi ilə bir-birinizə salam verməyi göstərin!



Tapşırıq 4. "Salam" mövzusu barədə bir şəkil çəkin!



Dərs 2

5-ci həftə
1-ci dərs

# Allahın nemətləri

Verilmiş şəkil ətrafında dostlarınızla söhbət edin və fikrinizi bildirin!



Birlikdə oxuyaq:

Müəlliminizin köməyi ilə bu gözəl şeiri birlikdə oxuyun!

## Allahın nemətləri

Kim bəxş edib bizə gözü, qulağı? Allah verib, Allah verib!
Kim bəxş edib düşüncə tək bulağı? Allah verib, Allah verib!
Kim bəxş edib bizə ata-ananı? Allah verib, Allah verib!
Kim bəxş edib qəlb dolusu səfanı? Allah verib, Allah verib!
Kim bəxş edib bizə qönçə gülləri? Allah verib, Allah verib!
Kim bəxş edib rəngarəng bülbülləri? Allah verib, Allah verib!
Kim bəxş edib günəşli gündüzləri? Allah verib, Allah verib!
Kim bəxş edib aylı, nur gecələri? Allah verib, Allah verib!



Tapşırıq 1. Müəlliminizin köməyi ilə "Allahın nemətləri" şeirini birlikdə oxuyun!

**Tablo 2**

Kövsər surəsinin verildiyi tabloya baxın və audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun.

## Kövsər surəsi

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحيمِ

Rəhman və Rəhim Allahın adı ilə!

١ ـ اِنَّا اَعْطَيْنَاكَ الْكَوْثَرَ

Biz sənə Kövsər (bol xeyir-bərəkət) bağışladıq.

٢ ـ فَصَلِّ لِرَبِّكَ وَانْحَرْ

Elə isə Rəbbin üçün namaz qıl və qurban kəs!

٣ ـ اِنَّ شَانِئَكَ هُوَ الْاَبْتَرُ

Sənin düşmənin özü sonsuzdur.

Tapşırıq 2. Şagirdlərdən könüllü olaraq istəyən Kövsər surəsini tək oxusun.

Hörmətli valideyn! Surəni oxuyarkən ayə və sözlərin ümumi görünüşünə baxmaq kifayətdir. Bu mərhələdə sözləri hecalara bölməyə ehtiyac yoxdur.

Birlikdə oxuyaq

Tapşırıq 1. Kövsər surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

Tapşırıq 2. Aşağıda verilmiş gözəl şeiri müəlliminizin köməyi ilə birlikdə oxuyun və ona uyğun bir ad seçin!

**Fatimə Zəhra gəldi,**
**Gülər üz, nur çətirli.**
**Ətəyində bol güllər,**
**Qönçə, nərgiz ətirli.**

**Başı üstə bir ulduz,**
**Səmadan tac nişanı.**
**Mehriban çöhrəsində,**
**Təbəssüm dürəfşanı.**

**Atası qucaq açıb,**
**Öpdü onun alnından.**
**Mələklərə səsləndi:**
**"Şükür Rəbbin payından!"**

Kubra Haşimi

**6-cı həftə**
**2-ci dərs**

Tapşırıq 1. Kövsər surəsinin yazıldığı tabloya baxaraq onu birlikdə oxuyun!

**Quranın mesajı**

اَلْحَمْدُ لِلّٰهِ

**İlahi şükür!**

(Həmd surəsi, 2-ci ayə)

şükr : حَمد

Tapşırıq 2. Aşağıda verilmiş nemətlərin adlarını sadalayın. Onların şəklini tamamladıqdan sonra rəngləyin.









Söhbət: Allahın daha bir neçə nemətini sadalayın.

Tapşırıq 1. Kövsər surəsini və Kövsər şeirini audiosəsləndirmədə olduğu kimi birlikdə ucadan oxuyun.

Tapşırıq 2. Keçən dərsin Quran mesajını sinif yoldaşlarınız üçün danışın.

## Çörək necə əmələ gəlir?

Dostlarınızla danışaraq aşağıda verilmiş şəkillər barədə söhbət edin.











Tapşırıq 1. Kövsər surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə birlikdə ucadan oxuyun.

Tapşırıq 2. Keçən dərsin Quran mesajını sinif yoldaşlarınız üçün danışın.

## Quranın mesajı

وَ اشْكُرُوا نِعْمَةَ اللّٰهِ

**Sizə nemətlər vermiş Allaha şükür edin.**

(Nəhl surəsi, 114-cü ayə)

Allah, tanrı : الله      nemət : نعمة

Aşağıdakı şəkilin köməyi ilə dərsdə verilmiş Quranın mesajı barədə bir-birinizlə danışın.



Tapşırıq 1. Şagirdlərin hər biri Kövsər surəsini yoldaşları üçün oxusun.

Tapşırıq 2. Bu dərsdə verilmiş Quran mesajlarını birlikdə oxuyun.

**Əziz şagirdlər!**

1. Allahın bu nemətinin adını deyin.
2. Suyun bizə nə kimi faydası var?
3. Allahın bu nemətini necə qoruyub saxlaya bilərik?



Aşağıda verilmiş yarımçıq cümləni tamamlayın:
Allah suyu ona görə yaradıb ki, ...

# Dərs 3

8-ci həftə
2-ci dərs

## Bizim evimiz

Verilmiş şəkil barədə yoldaşlarınızla danışın və fikrinizi bildirin.



Müəlliminizin köməyi ilə bu gözəl şeiri oxuyun.

# Bizim evimiz

Bir evimiz var,
Sanki bir güldan!
Güldanın gülü -
Atamla, anam!
İstəyirəm ki,
Pərvanə olub
Bu ev içində
Saf övlad olam!



Tapşırıq 1. “Bizim evimiz” şeirini sinif yoldaşlarınız üçün oxuyun.

## Tablo 3

Əsr surəsinin verildiyi tabloya baxın və audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحِيمِ

Rəhman və Rəhim Allahın adı ilə!

١ ـ وَالْعَصْرِ

And olsun əsrə -

٢ـ اِنَّ الْاِنْسَانَ لَفِى خُسْرٍ

ki, insanlar ziyandadırlar!

٣ ـ اِلَّا الَّذِينَ آمَنُوا وَ عَمِلُوا الصَّالِحَاتِ

وَ تَوَاصَوْا بِالْحَقِّ وَ تَوَاصَوْا بِالصَّبْرِ

Yalnız iman gətirib yaxşı işlər görənlər, bir-birinə haqqı məsləhət görənlər və bir-birinə səbrli olmağı tövsiyə edənlər istisnadır.

Tapşırıq 2. Şagirdlərdən könüllü olaraq istəyən Əsr surəsini tək oxusun.

Tapşırıq 1. Əsr surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

Tapşırıq 2. Aşağıda verilmiş gözəl şeiri müəlliminizin köməyi ilə birlikdə oxuyun və ona uyğun bir ad seçin.

Tık-tık edir saatım,
Səs-küy salır aramsız.
Ard-arda gəlib keçir
Günlərim, saatlarım.

Ey şirin gözüm, yatma!
Ey əlim, iş başına!
Qəlbim şaddır, ayıqdır,
Gecə-gündüz oyaqdır.

Ey könül, gəl özün de,
Öz arzunu Allaha!
Sakit ol, səbirli ol,
İşlərində bir daha!

Kubra Haşimi



Tapşırıq: Əsr surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

## Quranın mesajı

وَ بِـالْـوالِـدَيْـنِ اِحْـسـانًـا

**Ata-ananıza yaxşılıq edin.**

(İsra surəsi, 23-cü ayə)

Yaxşılıq: اِحْسان  Ata-ana: والِدَيْن

Verilmiş şəkildən istifadə edərək Quranın mesajı barədə danışın.



Tapşırıq 1. Əsr surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun.

Tapşırıq 2. Dərsdə verilmiş Quran mesajını birlikdə oxuyun.

Tapşırıq 3. Verilmiş şəkildən istifadə edərək dostlarınızın köməyi ilə ata-anaya yaxşılığı nümayiş etdirin.



Tapşırıq 1. Əsr surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun.

Tapşırıq 2. Keçən dərsdə verilmiş Quran mesajını sinif yoldaşlarınız üçün oxuyun.

Aşağıda verilmiş şəkilə baxaraq "Babanın hədiyyəsi" əhvalatını dostlarınız üçün danışın.

## Babanın hədiyyəsi







**Baba:** Uşaqlar, Qurandan surələr öyrəndiyiniz üçün afərin!



# Dərs 4

**11-ci həftə**
**2-ci dərs**

# Quran oxuyaq

Verilmiş şəkil barəsində dostlarınızla danışın və fikrinizi bildirin.



Müəlliminizin köməyi ilə aşağıdakı gözəl şeiri oxuyun.

# Mənim arzum

Mənim arzum budur ki,
Atam kimi oxuyum
Gül ətriylə qoxuyan
Quranı mən də bir gün!

Bir guşədə əyləşib,
Onun qissələrindən
Düşünərək dərindən
Oxuyum aram-aram.

Bilirəm ki, bu Quran
Səma hədiyyəsidir.
Onun hər bir cümləsi
Allahın kəlməsidir!

Quran mənimçün, sanki
Xoş ətirli bir bağdır!
Sevib ona sarılsan,
Güvənilən bir dağdır!

Əfsanə Şaban Nejat



12-ci həftə
1-ci dərs

Quran oxuyaq

Tapşırıq: Audiosəsləndirmənin müşayiəti ilə "Mənim arzum" şeirini birlikdə oxuyun.

## Tablo 4

Müəllimin işarəsi ilə tabloda verilənləri birlikdə oxuyun.

| ـو | ـا | ـَ | |
|---|---|---|---|
| بو | با | بَـ | بـ |
| تو | تا | تَـ | تـ |
| دو | دا | دَ | د |
| سو | سا | سَـ | سـ |
| مو | ما | مَـ | مـ |
| رو | را | رَ | ر |
| نو | نا | نَـ | نـ |

## Tablo 5

Aşağıda verilmiş Quran sözlərini müəllimin işarəsi ilə hecalara bölərək birlikdə oxuyun.

| | | |
|---|---|---|
| سارَ | دَنا | اَبا |
| اَبانا | اَرادَ | اَمَرَ |
| اَرادا | تابَ | سَنا |

Tapşırıq 1. Dördüncü və beşinci tabloda verilənləri kitabdan qrup yoldaşınız üçün oxuyun. Sonra isə müəllimin seçimi ilə onları öz sinif yoldaşlarınız üçün ucadan oxuyun.

Tapşırıq 2. "Mənim arzum" şeirini birlikdə oxuyun.

## Tablo 6

Aşağıdakı tabloda verilənləri müəllimin işarəsi ilə birlikdə oxuyun.

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| نيـ | ميـ | سيـ | زيـ | ريـ | ديـ | تـيـ | بـيـ | ايـ | ـيـ |
| نى | مى | سى | زى | رى | دى | تى | بى | اى | ـى |

## Tablo 7

Aşağıdakı tabloda verilmiş Quran sözlərini müəllimin işarəsi ilə hecalara bölərək birlikdə oxuyun.

آدَمَ    آمَـنَ    اَنـابَ

نورَ    اَبى    دينى

دونَ    بَـنونَ    تَـتوبا

**13-cü həftə**
**1-ci dərs**

Tapşırıq 1. Altıncı və yeddinci tabloda verilənləri kitabdan qrup yoldaşınız üçün oxuyun. Sonra isə müəllimin seçimi ilə onları öz sinif yoldaşlarınız üçün ucadan oxuyun.

Nas surəsinin verildiyi tabloya baxın və audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun!

## Tablo 8

بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحيمِ

Rəhman və Rəhim Allahın adı ilə!

١ـ قُلْ اَعوذُ بِرَبِّ النّاسِ

De: "Sığınıram insanların Rəbbinə,

٢ـ مَلِكِ النّاسِ

insanların hökmdarına,

٣ـ اِلٰهِ النّاسِ

insanların məbuduna!

٤ـ مِنْ شَرِّ الْوَسْواسِ الْخَنّاسِ

Gizli iş görən vəsvəsəçinin şərindən

٥ـ اَلَّذى يُوَسْوِسُ فى صُدورِ النّاسِ

ki, insanların qəlbinə vəsvəsə salır,

٦ـ مِنَ الْجِنَّةِ وَ النّاسِ

(həmin vəsvəsəçi) istər cinlərdən olsun, istər sə də insanlardan!"

Tapşırıq 2. Şagirdlərdən könüllü olaraq istəyən Nas surəsini tək oxusun.

Tapşırıq 1. Nas surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun.

Tapşırıq 2. Beşinci və yeddinci tabloda verilənləri kitabdan qrup yoldaşınız üçün oxuyun. Sonra isə müəllimin seçimi ilə onları öz sinif yoldaşlarınız üçün ucadan oxuyun.

Tapşırıq 3. Aşağıda verilmiş gözəl şeiri müəlliminizin köməyi ilə birlikdə oxuyun və ona uyğun bir ad seçin.

……………

Bu dünyada, ey Allah,
Mənə arxa dayaqsan,
Kömək ol yıxılmayım,
Sən həmişə oyaqsan!

Hər saatda, hər anda
Sənsən mənim köməyim.
Qəlbim Sənə əmanət,
Heç vaxt "kaş ki,.." deməyim!

Əgər mənimlə olsan,
Pisliklər uzaq olar,
Canım, qəlbim, ey Allah,
Ümid, sevinclə dolar!

Kubra Haşimi



Tapşırıq 1. Nas surəsinin yazıldığı tabloya baxaraq audiosəsləndirmənin müşayiəti ilə onu birlikdə oxuyun.

Tapşırıq 2. Aşağıdakı şəklə baxaraq sevimli müəlliminizin köməyi ilə orada verilmiş əhvalatı dostlarınız üçün danışın.

## Ən mehriban müəllim



**Həzrət Fatimə (s.ə) buyurmuşdur:**

"Atam Peyğəmbər oğlum Həsənlə Hüseynə Quranın bəzi surələrini öyrədirdi."

*(Həzrət Fatimənin Müsnədi, səh. 235)*

Quran oxuyaq

## Tablo 9

Aşağıdakı tabloda verilənləri müəllimin işarəsi ilə birlikdə oxuyun.

| | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|
| يِـ | نِـ | مِـ | شِـ | سِـ | زِ | رِ | دِ | تِـ | بِـ | ـــِ |

## Tablo 10

Aşağıdakı tabloda verilənləri müəllimin işarəsi ilə hecalara bölərək birlikdə oxuyun.

| | | |
|---|---|---|
| اَرِنى | بَنينَ | اَرونى |
| تَرانى | شَرِبَ | اَبينا |
| شارِبونَ | ماروتَ | آياتِنا |

## 14-cü həftə
## 2-ci dərs

Tapşırıq 1. Onuncu tabloda verilənləri kitabdan sinif yoldaşlarınız üçün təklikdə oxuyun.

Tapşırıq 2. Nas surəsini birlikdə oxuyun.

### Tablo 11

Aşağıdakı tabloda verilənləri müəllimin işarəsi ilə birlikdə oxuyun.

| | | | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| وُ | كُـ | نُـ | مُـ | شُـ | سُـ | زُ | رُ | دُ | تُـ | بُـ | ـُـ |

### Tablo 12

Aşağıdakı tabloda verilənləri müəllimin işarəsi ilə hecalara bölərək birlikdə oxuyun.

| | | |
|---|---|---|
| اُنيبُ | اَساوِرَ | كِتابُنا |
| يُنادى | اوتينا | كُتِبَ |
| سَنَزيدُ | آتاكَ | يُنيبُ |

Tapşırıq 1. Nas surəsini dostlarınız üçün təklikdə oxuyun.

Tapşırıq 2. "Ən mehriban müəllim" əhvalatını dostlarınız üçün danışın.

Aşağıdakı şəkilə baxaraq əziz müəlliminizin köməyi ilə şəkildəki əhvalatı dostlarınız üçün danışın.

## Dəyərli hədiyyə



İmam Hüseyn (ə) övladına Quran dərsi deyən müəllimə təşəkkürünü bildirdi.

# Təkrar 1

1. İki və ya üç nəfərlik qruplara bölünərək indiyidək öyrəndiyiniz Quran surələrini təkrarladıqdan sonra sinif yoldaşlarınız üçün oxuyun.
2. Yeməyə başlayarkən dediyimiz cümlənin qarşısında 1, yeməyi bitirərkən dediyimiz cümlənin qarşısında isə 2 rəqəmini qoyun.

....... اَلْحَمْدُ لِلّٰه رَبِّ الْعالَمينَ

........ بِسْمِ اللّٰهِ الرَّحْمٰنِ الرَّحيمِ

3. Birinci dərsdən üçüncü dərsə qədər verilmiş Quran mesajlarından birini dostlarınız üçün oxuyun.
4. Aşağıda verilmiş Quran sözlərini və birləşmələrini hecalara bölərək oxuyun.

بارَكَ سَكَنَ اَرونى

وارِدُ مَساكِنَ رواكِدَ

١ـ يا اَبانا

٢ـ و اَرِنا مناسِكنا

5. Müəllim və ya ata-ananızın köməyi ilə kartondan istifadə edərək Quran rəhilinin formasını düzəldin.







# Dərs 5

**16-cı həftə**
**1-ci dərs**

# Müsəlman uşaq

Aşağıda verilmiş şəkil ətrafında dostlarınızla söhbət edin və fikrinizi bildirin.



Birlikdə oxuyaq

Müəlliminizin köməyi ilə aşağıdakı gözəl şeiri birlikdə oxuyun.

# Mən müsəlman uşağam!



Mən müsəlman uşağam,
Vardır dinim, imanım.
Kitabımsa Qurandır,
Peyğəmbərim buyurmuş,
Dan yeri söküləndə
Gərək şükür edim mən də.



## Quranın mesajı

يا بُنَيَّ اَقِمِ الصَّلاةَ

**Oğlum, namaz qıl!**

(Loğman surəsi, 17-ci ayə)

Namaz : صَلاة



Şəkilin köməyi ilə dərsdə verilmiş Quran mesajı barədə bir-birinizlə danışın. Məscidə getməyinizlə bağlı bir əhvalatı dostlarınıza söyləyin.

Tapşırıq 1. Keçən dərsdəki Quran mesajını sinif yoldaşlarınız üçün oxuyun.

Tapşırıq 2. "Mən müsəlman uşağam" şeirini birlikdə oxuyun.

## Tablo 13

Müəllimin işarəsi ilə aşağıdakı tabloda verilənləri birlikdə oxuyun.

| | | | | | | | | | |
|---|---|---|---|---|---|---|---|---|---|
| اَمْـ | اَكْـ | اَفْـ | اَشْـ | اَسْـ | اَزْ | اَرْ | اَدْ | اَتْـ | اَبْـ |
| اِمْـ | اِكْـ | اِفْـ | اِشْـ | اِسْـ | اِزْ | اِرْ | اِدْ | اِتْـ | اِبْـ |
| اُمْـ | اُكْـ | اُفْـ | اُشْـ | اُسْـ | اُزْ | اُرْ | اُدْ | اُتْـ | اُبْـ |

## Tablo 14

Aşağıdakı tabloda verilənləri müəllimin işarəsi ilə hecalara bölərək birlikdə oxuyun.

اَمْرى اَشْكُرَ اَكْفُرَ

كَشَفَ كاشِفَ مُسْرِفينَ

17-ci həftə
2-ci dərs

Tapşırıq 1. Keçən dərsdəki Quran mesajını birlikdə oxuyun.

Tapşırıq 2. On dördüncü tabloda verilmiş sözləri kitabdan sinif yoldaşlarınız üçün təklikdə oxuyun.

## Tablo 15

